# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

## S Ə R Ə N C A M

**“Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrına “milli” statusun verilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 26 aprel tarixli 173 nömrəli Qərarının icrasının təmin edilməsi barədə**

1. “Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrına “milli” statusun verilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 26 aprel tarixli 173 nömrəli Qərarına uyğun olaraq:

1.1. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının işçilərinin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq vəzifə maaşlarına Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 17 mart tarixli 69 nömrəli Qərarı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən teatrların “Akademik” və “Milli” statuslarına təqdim olunması Qaydası”na uyğun olaraq 50 faiz məbləğində əlavənin verilməsi məqsədilə tələb olunan vəsaitin maliyyələşdirilməsini həyata keçirsin.

1.2. Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının işçilərinə 2022-ci il mayın 1-dən etibarən əlavənin ödənilməsini təmin etsin.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, “27” aprel 2022-ci il
№ 43s